# Akademik Tarih ve Düşünce Dergisi

**Published by** **Kış 2021/ 8-4**
https://dergipark.org.tr/tr/pub/atdd https://doi.org/10.46868/atdd.206


## Amerika romanının əsas inkişaf mərhələləri haqqında (XX əsrin birinci yarısı)


**Ceyran Quliyeva***
**ORCID: 0000-0003-3083-3401**



**Xülasə**

Məqalədə XX əsrin birinci yarısında ABŞ romanistikasının əsas inkişaf mərhələlərindən, roman janrıyla populyarlaşan bir çox tanınmış müəlliflərin yaradıcılığından bəhs olunur. Qeyd olunur ki, bu dövrdə yaranan çox saylı romanlar bədii keyfiyyətilə yanaşı, milli və dünya ədəbiyyatındakı uğurlu yeri ilə əlmətdar olmuşdur. Bizim qənaətimizə görə, Amerika romanının əsas xüsusiyyətlərindən biri onların həyat həqiqətləri və hadisələri üzərində qurulması ilə bağlıdır. Bu baxımdan təhlilə cəlb etdiyimiz bir çox tanınmış müəlliflərin realist əsərləri tipik misal ola bilər. Məqalədə həmçinin XX əsrin birinci yarısında Amerika romanının spesifik inkişaf mərhələlərinə təsir göstərən amillər araşdırılır, Amerikada meydana gələn çox istiqamətli və çoxçalarlı milli ədəbi məktəblərin yazıçıların roman yaradıcılığındakı roluna nəzər salınır. Həmçinin, bu müəlliflərin əsərlərində ədəbi dövrə təsadüf edən romantizm, naturalizm və tənqidi realizm meyllərinin sintezi müşahidə olunmuşdur. Lakin buna baxmayaraq, romanlar Amerika həyatını ətraflı və düzgün təsvir edə bilər. Əsrin əvvəlində Mark Tven və Jack London, sonra Teodor Drayzer əsasən romanlarında tənqidi realizmi həyata keçirdilər və onlar romanlarında tənqidi realizmi təsdiqlədilər və ənənəvi mühafizəkarlığa və dəyərlərə müharibə elan etdilər.



**Açar sözlər:** Amerika, obraz, roman, mərhələ, realism, regionalism, tendensiya,

**Gönderme Tarihi: 08/09/2021** **Kabul Tarihi:19/10/2021**


---


* *Filologiya üzrə fəlsəfə doktoru, dosent, Naxçıvan Devlet Universitetinin müəllimi, Naxçıvan-Azərbaycan, ceyranquliyeva1959gmail.com*



***Bu makaleyi şu şekilde kaynak gösterebilirsiniz:***
Quliyeva, Ceyran. ‘’Amerika romanının əsas inkişaf mərhələləri haqqında (XX əsrin birinci yarısı).’’ *Akademik Tarih ve Düşünce Dergisi*, 8-4, 2021, ss. 2131-2142.

# Main stages of the development of the American novel (first half of the 20th century)

**Jeyran Guliyeva***
**ORCID: 0000-0003-3083-3401**

**Abstract**

The article discusses the main stages of the development of the American novelists in the first half of the 20th century, the works of many well-known authors who became popular in the novel genre. It is stated that many novels created during this period, along with their artistic quality, were marked by their successful place in national and world literature. To our conclusion, one of the main features of the American novel was to discover the materials coming from American typical lifestyles. In this regard, the realist works of many well-known authors, which we have analyzed, can be a typical example. The article also examines the factors affecting the specific stages of development of the American novel in the first half of the 20th century, the role of writers in the creation of novels in the multifaceted and multifaceted national literary school that emerged in America. Also, a synthesis of romanticism, naturalizm ans critical realism tendencies of the literary period was observed in the works of these authors. Nevertheless, th enovels can describe American life in detail and accurately. At the turn of the century, Mark Twain and Jack London, and then Theodore Dreyzer, mainly practiced critical realism in their novels, affirmed critical realism in their novels, and declared war on traditional conservatism and values.

**Keywords:** America, image, novel, stage, realism, regionalism, trend,

**Received Date: 08/09/2021** **Accepted Date: 19/10/2021**

* *Phd in philology, associate professo, Lecturer of Nakhchivan State University, Nakhchivan-Azerbaijan, ceyranquliyeva1959gmail.com*

***You can refer to this article as follows:***
Quliyeva, Ceyran. ''Amerika romanının əsas inkişaf mərhələləri haqqında (XX əsrin birinci yarısı).'' *Academic Journal of History and Idea*, 8-4, 2021, pp.2131-2142.

# Об основных этапах развития американского романа (первая половина XX века)

**Джейран Гулиева***
**ORCID: 0000-0003-3083-3401**

**Резюме**

В статье рассматриваются основные этапы развития американского романизма первой половины XX века, произведения многих известных авторов, ставших популярными в жанре романа. Отмечается, что многие романы, созданные в этот период, наряду с их художественными качествами ознаменовались удачным местом в отечественной и мировой литературе. На наш взгляд, одной из главных особенностей американского романа является то, что он основан на реалиях и событиях жизни. Типичным примером в этом отношении могут быть проанализированные нами реалистические произведения многих известных авторов. В статье также рассматриваются факторы, повлиявшие на конкретные этапы развития американского романа в первой половине XX века, роль писателей в создании романов в многогранных национальных литературных школах, возникших в Америке. Также в произведениях этих авторов наблюдался синтез романтизма, натурализма и критического реализма как тенденций литературного периода. Тем не менее, романы могут подробно и точно описать американскую жизнь. На рубеже веков Марк Твен и Джек Лондон, а затем Теодор Драйзер в своих романах преимущественно практиковали критический реализм, а утвердили в своих романах критический реализм и объявили войну традиционному консерватизму и ценностям.

**Ключевые слова:** Америка, образ, роман, синтез, реализм, тенденция

**Получено: 08/09/2021** **Принято: 19/10/2021**

---

* *Кандидат филологических наук, доцент, преподаватель Нахчыванского государственного университета, Нахчыван-Азербайджан, ceyranquliyeva1959gmail.com*
***Ссылка на статью:***
Quliyeva,Ceyran. ''Amerika romanının əsas inkişaf mərhələləri haqqında (XX əsrin birinci yarısı).'' *академическая история и мысль*, 8-4, 2021, сс.2131-2142.

**Giriş**

İyirminci yüzilliyi Amerika ədəbiyyatının çiçəklənmə dövrü adlandırmaq olar; məhz bu dövrdə ABŞ yazıçıları bir-birinin ardınca şedevrlər yaratdılar və dünya mədəniyyəti xəzinəsinə əhəmiyyətli töhfələr verdilər. Əsrin əvvəllərindəki gərgin ictimai-siyasi və hərbi vəziyyət, böyük depressiya, iki dünya müharibəsi və irqi ayrı seçkiliyə qarşı mübarisə fonunda Amerikada dünya ədəbiyyatının sözün həqiqi mənasında klassikləri doğuldu, onlardan bir qismi Nobel aldı, bir qismi digər nüfuzlu ödüllərin sahibi oldu, bir qisminin isə əsərlərinin motivləri əsasında bütöv bir dövrün salnaməsini və tarixçəsini əks etdirən məşhur filmlər meydana gəldi.

**1-Amerika ədəbi mühitində tənqidi realizm nümayəndələri**

Birinci dünya müharibəsindən sonra amerikalıların həyatında radikal sosial-iqtisadi dəyişikliklər daha çox əsrin iyirminci illərindən sonra sezilməyə başladı. Məhz bu illərdə ədəbiyyatda artıq realizm meyllləri güclənmişdi, halbuki onun ilk rüşeymləri hələ əsrin başlanğıcında cücərməyə başlamışdı. Amerikalıların yeni həyat gerçəklikləri ədəbiyyata gətirildi və beləliklə, bütöv bir yazıçılar ordusu real həyat hadisələrini əsərlərinə gətirərək mövcud olan sosial və ictimai qaydaların dəyişdirilməsi problematikasını qabartdı.

Əgər biz XX əsr ABŞ ədəbiyyatını mərhələlərə bölməli və onun dünya ədəbiyyatı xəzinəsinə verdiyi töhfələri mərhələ-mərhələ araşdırmalı olsaq, mövzunun coğrafi və elmi tədqiqiylə bağlı nəhəng bir xəritə cızmış olarıq. Və bu xəritənin ucu-bucağı görünməz və qeyd edək ki, onun hər bir nöqtəsi, hər bir xətti zəngin ədəbi nümunələr, sürətlə artan, müxtəlif janrlı və məzmunlu əsərlərin istedadlı müəlliflərinin adlarıyla zənginləşər və şübhəsiz, müxtəlif səpkili elmi araşdırmalara da yol açar. Əlbəttə, bu dinamika və zəngin kalorit çoxsaylı ədəbi əsərlərin bədii keyfiyyəti ilə, milli və dünya ədəbiyyatındakı uğurlu yeri ilə müşahidə olunanda daha mükəmməl görünür. Bu baxımdan XX əsr Amerika romanının spesifik inkişaf mərhələlərində ədəbi prosesə və milli şüura təsir edən

amilləri – azad Amerikanın tarixi inkişafının xüsusiyyətlərini və onların ictimai-siyasi və mədəni həyata təsir imkanlarını görməmək mümkün deyil. Bizim qənaətimizə görə, XX əsr Amerika romanının inkişaf mərhələlərinə məhz bu kontekstdən yanaşmaq daha önəmlidir. Şərti olaraq XX əsr Amerika romanının tarixini iki əsas mərhələyə bölmək olar:

1. Birinci Dünya müharibəsindən əvvəlki və sonrakı mərhələ;

2. İkinci Dünya müharibəsindən sonrakı mərhələ.

Fikrimizcə, XX əsrdə Amerika romanının hər iki inkişaf mərhələsinin əsas xarakterik göstəricisi və mahiyyəti bütün ziddiyyətləri, kəskin təzadları, eybəcərlikləri və gözəllikləri, milli adət-ənənələri və yeni kaloritli əlamətləri ilə birgə tipik "Amerika" obrazının yaradılmasından ibarət olmuşdur. Bu baxımdan həm birinci, həm də ikinci mərhələdə yaşayıb-yaradan, bizə bəlli olan və olmayan yazıçıların – Mark Tven, Cek London, Ernest Heminqvey, Uilyam Folkner, Teodor Drayzer, Marqaret Mitçel, Artur Miller, Artur Heyli, Con Steynbek, Cerom Selincer, Frensiz Ficerald və başqa görkəmli sənət adamlarının yaradıcılığı önəmli rol oynamışdır[1]. Bu məqalədə biz yalnız XX əsrin birinci yarısında meydana gələn bəzi məşhur romanların xarakterik cəhətlərini təhlil etməyə çalışacağıq.

Tarixdən məlumdur ki, X1X əsrin ikinci yarısından başlayaraq Amerika ədəbiyyatında bir sıra cərəyanlar meydana gəldi ki, bunlar da ədəbiyyatın inkişafına öz əhəmiyyətli təsirini göstərdi. Misal üçün, regionalizm, puritanizm, amerikan arzusu, bədii və sənədli sintez ədəbiyyatı, romantizm, naturalizm, realizm və s. bu kimi cərəyan və tendensiyalar ABŞ tarixində və mədəniyyətində mühüm rol oynadı, cəmiyyətin elmi və mədəni potensialını artırdı. Dünyada gedən proseslər, habelə daxildəki siyasi-iqtisadi və sosial təbəddülatlar ABŞ-da yaşayan xalqların dünyagörüşünü və mentalitetini dəyişdirdi. Və bütün bu proseslərdə əsas rolu da elə ədəbiyyat oynadı.

Ötən əsrin əvvəllərindən başlayaraq realizm cərəyanı formalaşmağa başladı və bu cərəyanın əsl yaradıcıları isə Mark Tven, Bret Hart, daha sonralar Teodor Drayzer, O. Henri və Cek London oldu[2]. Realist yazıçılar öz realist ideyalarını necə deyərlər "zərif realizm" və yaxud "incə ənənələr" (genteel tradition) tərəfdarlarına qarşı qoydular və beləliklə, ABŞ ədəbiyyatında konservativ ədəbiyyata qarşı güclü müqavimət ədəbiyyatı yarandı. Çılpaq həyat həqiqətlərini qəbul etməyən mühafizəkarlar sənəti "vulqarlıqdan" qorumaq istəsələr də, buna nail ola bilmədilər.

Cek Londonun yaradıcılığında neoromantizm meylləri ilə yanaşı, realizm və naturalizm tendensiyaları da sezilməyə başladı. Teodor Drayzerin yaradıcılığında realizm meylləri gücləndi, beləliklə, yeni dövrün və cərəyanların tələbi yazıçılar qarşısında yeni vəzifələr qoydu. Bu vəzifələrin yerinə yetirilməsində həm yaşlı nəsil (Mark Tven, T. Drayzer, A. Sinkler və s.), həm

[1] Pisateli SŞA, Kratkie tvorçeskie bioqrafi, Moskva, Raduqa 1990. S. 624. Sostaviteli i obshya redakchiya Y. Zasurskoqo, Q. Zlobina i Y. Kovaleva.
[2] Y. V. Stulev, *Sto pisateley SŞA.* Visshaya şkola Yayim Evi, Minsk 1998, s.334.

də cavan nəslin nümayəndələri (E. Heminqvey, F. Ficerald, C. Passos, C. Rid və s.) də iştirak edirdi[3].

Keçmiş sovet dövründə Azərbaycanda da yaxşı tanınan Mark Tven (Mark Twain,1835-1910) Amerika ədəbiyyatında instinktiv realizmin əsasını qoydu. O, XX əsrin əvvəllərində ömrünün son illərini daha məhsuldar yaşadı və ciddi, tənqidi realizmə söykənən əsərlər yazdı, milli ədəbiyyatda əfsanəvi fiqura döndü. Mark Tveni xarakterizə edən əsas cəhətlərdən biri və ən başlıcası Amerikanın xarakterini, mentalitetini və mədəniyyətini sözün bütöv mənasında ortaya qoyması olmuşdu. Məhz onun kitablarına görə avropalıların gözündə və şüurunda "Amerika" obrazı yarandı.[4]

Təkcə bu faktı demək kifayət edər ki, Mark Tvenin ölümündən sonra çap olunmuş "Sirli naməlum adam" (The Mysterious Stranger, 1916) əsəri özündən sonra gələn bütün realist sənətkarlar üçün örnək oldu və əsərdə qoyulan ciddi, kəskin, sarkastik mətləblər, real həyat hadisələrinin və sosial problemlərin tənqidi müstəvidə və obrazlı şəkildə təsvir edilməsi müasir Amerika cəmiyyətinə güzgü tutdu. Onun uşaqlar və böyüklər üçün yaratdığı şedevrlər dünya ədəbiyyatı tarixində silinməz izlər buraxdı və dünya oxucusu özü üçün Amerikanı "kəşf" etdi.

Birinci dünya müharibəsinə qədərki dövrdə yetişən realist yazıçılardan biri də Cek London idi (Jack London, 1876-1916). Lakin onun yaradıcılığında realizmlə yanaşı romantizm və naturalizm meylləri də vardı. Cek Londonun həyat uğrunda mübarizədə insanın psixoloji və mənəvi durumunu məharətlə göstərən povest və hekayələri Azərbaycanda da populyarlıq qazanmışdı.

Cek Londonun ağır həyat yolu və xüsusilə gənclik illəri Amerikada iqtisadi depressiya və işsizliyin tüğyan elədiyi dövrə düşmüşdü. Yazıçı artıq iyrmi üç yaşına kimi bir neçə iş dəyişmişdi, konserv zavodunda fəhlə, matros, avara sərgərdan, elektrik stansiyasında ocaqçı, Alyaskada qızılaxtaran vəs. Elə o dövrdən gənc yazıçının diqqətini sosial ədalətsizlik problemləri cəlb etdi. Cek başa düşdü ki, bütün bədbəxtliklərin səbəbi təkcə insanların qüsurları və tənbəlliyi deyil, həm də onların məcburən sürünə-sürünə yaşadıqları sosial şəraitdir.

---

[3] L. R. Pozdnyakova, *İstoriya anqliyskoy i amerikanskoy literature*, Feniks Yayim Evi, Rostov 2002, s 320.
[4] D. Zmijewski, "The Man in Both Corners: Mark Twain the Shadowboxing Imperialist", *Hawaiian Journal of History*, 2006, Vol. 40, ss. 55–73.

Onun yaradıcılığında əsas yerlərdən birini şimal hekayələri tutur. Bu hekayələr silsiləsinə onun iki məşhur animalist povesti də daxildir: "Əcdadların harayı" və "Ağ Diş". [5] Bu əsərlərin süjet xətti personajlarının şimalda yaşamaq uğrunda dramatik mübarizəsi ilə yadda qalmışdır. Məhz bu baxımdan XX əsrin ilk onilliklərində Amerika ədəbi prosesində əsas tendensiyaların spesifik sintezi başlayır: realizm, neoromantizm və naturalizmin birləşməsi və yazıçının yaradıcılığında əsas rol oynaması açıq-aşkar görünür. "Şimal hekayələri" ndə Cek London macəra süjetlərindən istifadə edir, qəhrəmanlar ekstremal situasiyalara düşür, şimalın vəhşi təbiəti sivilizasiya ilə üz-üzə gəlir, insanın ən yaxşı keyfiyyətləri sayılan dostluq, sədaqət, fədakarlıq nümunələri daha yaxşı açılır. Əlbəttə, burada realist prinsiplər bəlkə də özünü az göstərir, lakin bütün sosial konflikt və situasiyaların təsvirində yer alır, psixoloji analizlərdə insanın fəzilət və qəbahətləri üzə çıxır, xüsusilə var-dövlət və qızıla olan ehtiraslar qarşısında seçim etmək zamanı mənəvi-psixoloji dəyərlərin ölçüləri yazıçı ustalığı ilə ortaya qoyulur. Bu əsərləri oxuduqca düşünürsən ki, insan təkcə öz həyatını xilas etmək zamanı vəhşiyə dönmür, həm də onun gözünü qızıla olan ehtiras tutanda vəhşiləşir.

"Martin İden" romanını Cek Londonun ən yaxşı əsərlərindən hesab etmək olar. Janr baxımından bu əsəri "tərbiyəvi roman" da adlandırmaq olar. Əsərdə avtobioqrafik elementlər güclüdür: yaradıcı fərdin formalaşması prosesi, qəhrəmanın daxili aləminin inkişafı mərhələləri və s. Yazıçı kimi Martin İden çox çətin formalaşma dövrü yaşayır və onu faciəvi sonluq gözləyir: intihar! Belə bir finalla Cek London faktiki olaraq öz həyatının sonunu qabaqcadan görmüşdü. "Martin İden" sosial-psixoloji roman tipinin klassik nümunəısidir və əsas mövzu da sənətkarın cəmiyyətdəki yeri və taleyi məsələsidir, tanınmaq üçün onun mübarizəsidir. Bundan başqa "Martin İden" böyük sənətkarlıqla yazılmış əsərdir, burada yazıçı sənət haqqında fəlsəfi fikirlərə yer verir, sənətin cəmiyyətdə və şəxsiyyətin həyatında rolu barədə maraqlı mülahizələr söyləyir.

Qeyd etdiyimiz mərhələdə Amerikada populyar realist romançılardan biri də şübhəsiz, Teodor Drayzer idi. XX əsrin ilk səhifəsi də demək olar ki, Drayzerin romanıyla açılır: onun ilk realist romanı sayılan "Kerri bacı" (Sister Carrie) 1900-cü ildə çap olunur. Romanda gözəl həyat qurmaq arzusuyla Çikaqoya gələn bir qızın taleyindən bəhs olunur. Bu tipik əyalət qızı uğur qazanmağa çalışır, var-dövlətə sahib olmaq istəyir, bu zaman çox vaxt əxlaq prinsiplərini tapdalamalı olur. Kerri ilk sevgilisini atır, daha varlı və uğur əldə etmiş bir adamı seçir. Qızın yüksəlişi oğlanın yıxılmasıyla nəticələnir, Hertvud intihar edir və beləliklə, onun bütün sərvəti

[5] Cek London, "Dünya Ədəbiyyatı kitabxanası" seriyasından, *Povestlər və hekayələr*, Yazıçı Nəşriyyatı, Bakı 1991, s.464.

Kerriyə qalır. İlk baxışdan belə görünür ki, Kerri məqsədinə nail olur, "Amerikan arzusu"na çatır, karyera qurur, varlı və tanınmış qadın olur, lakin nə şöhrət, nə də pul ona xoşbəxlik gətirir. O dövrdə bu romanla Drayzer bütün puritan ənənələrinin üstündən xətt çəkir, onun naturalist meylləri yaşamaq uğrunda mübarizə aparan güclü şəxsiyyət obrazı yaratmasıyla maraqlıdır. Beləliklə, yazıçının naturalist baxışları mübahisələrə səbəb olur, hətta naşirlər onun satışını dayandırırlar, bu da yazıçıya sarsıdıcı zərbələr vurur. Lakin on il sonra o, çətinlkiklərə sinə gərib ikinci böyük romanını – "Cenni Herhart"ı [6] yazır və tənqidçilər bu əsərə yaxşı qiymət verirlər. Maraqlıdır ki, "Cenni Herhart" romanında daha çox realism notları mövcud idi və yazıçı Amerika həyatının ən dərin və çılpaq qatlarını məharətlə açıb ortaya qoya bilmişdi. Roman müxtəlif təbəqəli, müxtəlif təhsil səviyyəsi olan qadın və kişinin məhəbbətindən bəhs edir. Cenni böyük ürəkli qadındır, əvvəlcə qardaşını xilas etmək üçün özünü "qurban" verir, sonra öz ailəsini yoxsulluqdan qurtarmaq, daha sonra isə sevgilisini xilas etmək üçün hər şeyə razı olur. Bu da onun şəxsi xoşbəxtliyinə mane olur: atası onu evdən qovur (daha sonra qızını bağışlayır və əmin olur ki, Cenni daha yaxşıdır, ailəsini sevir, ona ürəyi yanır və s...), daha sonra Cenninin sevdiyi kişi ona evlənmir, çünki onun mənsub olduğu kübar ailə buna pis baxır, Cennini qəbul eləmir, ona pis qadın kimi baxırlar. Bütün bunlara baxmayaraq, Cenni öz sevgisini ölməyə qoymur; o insanları sevir, onlara kömək əlini uzadır, əvəzində isə heç nə tələb etmir. Bu da onunla bitir ki, qadın öz şəxsi xoşbəxtliyini itirir; bütün əzizləri və sevdikləri Cennini tərk edir, beləliklə, qadın tək qalır. Cəmiyyətin və dinin tələbləri çox sərt olur, onlar Cenninin qəbul edilməsinə mane olur, əxlaqi dəyərlər kübar və şərti hesab olunan mühafizəkar çərçivələrə məğlub olur. Romanın əsas məğzi də elə bundan ibarətdir.

Drayzer bunun ardınca bir neçə hekayə, roman və pyes yazır, Avropaya səfəri barədə kitab buraxdırır. Onun əsas romanı 1925-ci ildə çap olunan "Amerika faciəsi idi. Bu roman Amerika iqtisadiyyatının dirçəlişi dövründə çıxmışdı. Roman üçün sənədli baza da vardı-çoxsaylı oxşar məhkəmə prosesləri. Yazıçı məhkəmə proseslərindən birinin protokolları ilə tanış olur və ondan istifadə edir: gənc bir oğlan cəmiyyətdə mövqe tutmaq üçün çalışır və cinayət törədir, ölümə məhkum olunur. Romanın əsas qəhrəmanı Klayd Qriffits obrazıdır, müəllif bu obrazı gənc yaşlarından ta dəhşətli finala – elektrik stulunda edam olunmasına qədər izləyir. Drayzerin qəhrəmanı Amerika cəmiyyəti üçün tipikdir, onun başına gələn faciə yalnız mindən biridir.

[6] T. Drayzer, *Cenni Herhardt, Roman,* Maarif nəşriyyatı, Bakı 1988, s.340.

Roman üç hissədən ibarətdir. Birinci hissədə Qriffitsin karyera ilə bağlı tarixçəsi, ikincidə cinayət törətməsi və üçüncüdə isə cəzası təsvir edilir.

Drayzer bu romanda cinayət və cəzanın psixoloji elementlərini, ölümə məhkum edilmiş insanın psixoloji halını spesifik amerikan variantında təqdim etmişdir; yazıçı sosial determinizm[7] prinsipinə sadiqdir, şəxsi keyfiyyətlərin ətraf mühitdən asılılığını təsdiqləyir, lakin bununla belə, cəmiyyəti mühakimə edir, qəhrəmana da ideal adam kimi baxmır. Bir sözlə, "Amerika faciəsi" Amerika ədəbiyyatı tarixində sensasiya və ictimai rezonans doğuran ən uğurlu əsərlərdən biriydi.

Bir mühüm nüansı da qeyt etməyi zəruri hesab edirik: XX əsrin birinci yarısında Amerika romanına xas olan ümumi cəhətlərdən biri də bu dövrdə yaşayıb-yaradan müəlliflərin yazıçılıq karyerasına jurnalistikadan gəlməsi ilə müşahidə olunur. Teodor Drayzer də özündən əvvəlki sələfləri kimi fəaliyyətə jurnalist kimi başlamışdı və jurnalistika sahəsində əldə etdiyi təcrübə onun yazıçı kimi formalaşmasında böyük rol oynadı. Əlbəttə, burada Amerika ədəbi prosesində gedən müxtəlif cərəyan və tendensiyaların da rolunu danmaq olmaz. Lakin əsas xətt və cəhət budur ki, yazıçılar istər hekayə, oçerk, povest, istərsə də roman yaradıcılığında sənədli elementlərdən bəhrələnmiş və istifadə etmişlər. Teodor Drayzer də istisna deyildi. Onun ilk romanlarından sonuncu romanına qədər bütün əsərlərində "iqtisadi detallar" a və sənədli materiallara rast gəlmək olar. Lakin bütün bunlar romanların bədii dəyərinə xələl gətirmir, əksinə, onu daha sanballı, informativ və mükəmməl edir.

Ümumiyyətlə, XX əsrdə iki dünya müharibəsi arasındakı dövrü (1914-1940) Amerika ədəbi həyatının çiçəklənməsi dövrü də adlandırmaq olar. Bu baxımdan XX əsrin iyirminci illəri Amerika romanı üçün "qızıl dövrdür". Bu xarakteristikanı o biri janrlara da aid etmək olar. Məhz bu dövrdə Amerika ədəbiyyatı Avropa ədəbiyyatını xronoloji baxımdan da üstələdi və dünya ədəbiyyatı xəzinəsinə mütləq şəkildə daxil ola bildi. Misal üçün, bu dövrdə Ernest Heminqveyin, Uilyam Folknerin, Ficeraldın, Şervud Andersonun, Tomas Eliotun, Robert Frostun və başqa sənətkarların poetik romanlarının meydana gəlməsi bunu deməyə əsas verir ki, XX əsrin ilk yarısı Amerika ədəbiyyatı tarixində ən məhsuldar, bədii keyfiyyət və statistika baxımından ən uğurlu dövr kimi yadda qalacaq.

Bizim fikrimizcə, bu sahədə araşdırılmalı məsələlər çoxdur və yuxarıdakı təhlillərimizi yekunlaşdırmalı olsaq, belə bir nəticəyə gəlmək: Amerika ədəbiyyatı tarixində XX əsrin birinci yarısı çoxsaylı realist romançılar nəsli yetirib. Onların demək olar ki, əksəriyyətini bədii-estetik

[7] *Determinizm: bütün hadisələrin qanunauyğunluğu və səbəbiyyət əlaqəsindən asılı olduğu haqqında nəzəriyyə*

və forma müxtəlifliyi ayrısa da, ictimai-siyasi və sosial movzuların ədəbi əsərlərdə bədii həlli birləşdirir. Təhlilə cəlb etdiyimiz müəlliflərlə yanaşı, cəlb etmədiyimiz yazıçıları da (Con Steynbek, Gertruda Steyn, Marqaret Mitçel, Robert Frost, Henri Miller, Frensis Ficerald, Uilyam Folkner və onlarla başqa sənətkarlar) nəzərə alsaq, deyə bilərik ki, onların ədəbiyyat qarşısındakı ən böyük xidmətləri həyat həqiqətlərini çılpaqlığı ilə ədəbiyyata gətirməklə yanaşı, həm də modernist meylli əsərlər ortaya qoymaları olub; romançılar zəngin, ziddiyyətli, biri birindən maraqlı və canlı obrazlar qalereyası yaratmışlar. Bundan başqa bu dövrdə milli çalar və mental rəngarəngliyini müəyyən edən ən önəmli amillərdən biri kimi regionalizm və naturalizm meyllərini də Amerika romanistikası üçün aparıcı, həm də uğurlu vasitə hesab etmək olar. Cənub, Şimal və Qərb regionlarının spesifik ədəbi məktəblərinin xüsusi rolunu əlavə etsək, Amerika romançılarının qısa zaman çərçivəsində dünya şöhrəti qazanmalarının daha bir səbəbini açıq-aşkar görmək mümkün olar.

**Nəticə**

Beləliklə, XX əsrin birinci yarısında Amerika romanının inkişafında çox mühüm rol oynamış qeyd olunan yazıçıların ədəbi yaradıcılığında o dövrün ədəbi mühiti üçün xas olan romantizm, naturalizm, tənqidi realizm və realizm cərəyanlarının sintezindən doğan meyllər güclü olsa da, onlar Amerika həyatının bütün detallarını doğru-düzgün və real boyalarla verə bilmişlər. Əsrin əvvəllrində həm Mark Tven və Cek London, həm də Teodor Drayzer Amerika ədəbiyyatında tənqidi realizmi bərqərar elədilər, bu yazıçılar özlərindən əvvəlki konservativ ənənələrə müharibə elan etdilər. Əsrin ilk on ili və sonrakı illərdə Amerikanın ədəbi həyatında mənəvi-əxlaqi dəyərlərə yeni çalarlar gətirildi və adları çəkilən müəlliflər "Amerka arzusu" deyilən dəyəri ədəbiyyatda daha qabarıq əlamətlərlə möhkəmləndirdilər. Birinci mərhələni qarışıq, həm də böhranlı ictimi-siyasi situasiya və hadisələr fonunda müxtəlif cür dəyərləndirmək olar. Yazıçılar özləri də bu böhranlı mərhələni müxtəlif yöndə görürdülər: Mark Tven çıxış yolunu estetik və demokratik inqilabda görürdü, Cek London humanizm və social həyatın yaxşılaşdırılması uğrunda mübarizə ideallarında axtarırdı, Drayzer isə bir qədər inqilabi sosial dəyərlərdə, qismən də sosialist ideallarında görürdü. Lakin bütün bunlara baxmayaraq, realist və modernist ədəbiyyatın inkişafı dayanmadı, əksinə sürət götürdü. XX əsrin birinci yarısında Amerika cəmiyyətindəki mənəvi böhranın yazıçılara təsirini nəzərə alsaq, o zaman demək olar ki, Amerika romanının birinci inkişaf mərhələsində (1898-1918) Mark Tven və Cek London kimi nəhəng yazıçılar tənqidi realizmin inkişafında müstəsna rol oynamışlar. İki dünya müharibəsi arasındakı mərhələdə isə Teodor Drayzerin tənqidi realizmini qeyd etməliyik və əslində bu müəllifləri romanistikada birləşdirən də məhz bu amildir. Nəticədə qeyd etdiyimiz yazıçılar özlərindən sonra gələn bütöv bir yazıçı nəslinin formalaşmasına səbəb oldular, onların peşəkarlıq səviyyələrinin yüksəlməsinə, qlobal və bəşəri problemlərə müraciət etmələrinə yardımçı oldular. Amerika romanı ənənə və eksperimentləriylə, mənəviyyatsızlıq və qeyri-insani dəyərlərlə mübarizə üsullarıyla, ədəbi zövq və maraqların zənginləşməsiylə dünya mədəniyyətində yeni səhifələr açdı.

**İstifadə olunmuş ədəbiyyat**

DRAYZER, T., *Cenni Herhardt Roman*, Maarif nəşriyyatı, Bakı 1988.

LONDON, C., "Dünya Ədəbiyyatı kitabxanası" seriyasından, *Povestlər və hekayələr*, Yazıçı Nəşriyyatı, Bakı 1991.

Pisateli SŞA, Kratkie tvorçeskie bioqrafi, Moskva, Raduqa 1990.

POZDNYAKOVA, L. R., *İstoriya anqliyskoy i amerikanskoy literature*, Feniks Yayim Evi, Rostov 2002.

Sostaviteli i obshya redakchiya Y. Zasurskoqo, Q. Zlobina i Y. Kovaleva.

STULEV, Y. V., *Sto pisateley SŞA,* Visshaya şkola Yayim Evi, Minsk 1998.

ZMIJEWSKI, D., "The Man in Both Corners: Mark Twain the Shadowboxing Imperialist", *Hawaiian Journal of History*, 2006, Vol. 40, ss. 55–73.